# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin Aparatının və strukturuna daxil olan qurumların işçilərinin ümumi say həddinin təsdiq edilməsi və “Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi Aparatının, rayon (şəhər) təhsil şöbələrinin, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin və rayon (şəhər) təhsil şöbələrinin Mərkəzi mühasibatlığının ştat cədvəllərinin təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2022-ci il 19 yanvar tarixli 16 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 19 mart tarixli 236-VI FR nömrəli Fərmanı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə”nin 5.2-ci bəndinə əsasən, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış təklifini nəzərə alaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin Aparatının işçilərinin say həddi 55 ştat vahidi, şəhər (rayon) təhsil şöbələrinin işçilərinin say həddi 76 ştat vahidi təsdiq edilsin.

2. “Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi Aparatının, rayon (şəhər) təhsil şöbələrinin, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin və rayon (şəhər) təhsil şöbələrinin Mərkəzi mühasibatlığının ştat cədvəllərinin təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2022-ci il 19 yanvar tarixli 16 nömrəli Qərarının 1-3-cü hissələri ləğv edilsin.

3. Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi bu Qərardan irəli gələn məsələləri həll etsinlər.

4. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Ceyhun Cəlilov**

Naxçıvan şəhəri, “16” avqust 2024-cü il

№ 57